# Etnik terrorizm və ermənilərin Türkiyədə müdhiş fırıldaqları



Tural İsmayılov

(əvvəli ötən sayımızda)

***Monte Melkonyan – Məşhur terrorçu, Suriya mənşəli ABŞ vətəndaşı, 1957-ci ildə Kaliforniya ştatında anadan olmuş, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmanın rəhbəri, uzun illər axtarışda olmuş, 1985-ci il noyabrın 28-də 6 il müddətinə həbs olunmuşdur. Lakin erməni lobbisi, eləcə də erməni terror təşkilatlarının təzyiqi nəticəsində Fransa həbsxanasından 1990-ci ildə vaxtından əvvəl azadlığa buraxılaraq Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilərək dinc azərbaycanlılara qarşı həyata kecirilən terror əməliyyatlarının iştirakçısı olmuşdur. O, Avropada, xüsusilə Fransada neçə illər ərzində türk diplomatlarına, Türk Kültür Ocaqlarına qarşı həyata keçirilən terror aktlarına birbaşa başçılıq etmişdir. Beynəlxalq terrorçu M.Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandiri olmuşdur. O, xüsusilə 1992-ci ildə Xocavənd rayonunun Qarabağlı kəndində, Xocalıda azərbaycanlıların xüsusi qəddarlıqla qətlə yetirilməsinə başçılıq edənlərdən biri olmuşdur.1993-cü il iyunun 12-də Dağlıq Qarabağda öldürülən "Avo" ləqəbli bu beynəlxalq terrorçunun Yerevanda keçirilən dəfn mərasimində rəsmi şəxslər, o cümlədən Ermənistan prezidenti də iştirak etmişdir. Ermənistanın milli qəhrəmanı elan olunmuş terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmiş, eləcə də onun Xankəndi və Yerevanda heykəli qoyulmuşdur.***

Varjuan Karapetyan – ASALA terror təşkilatının Fransa bölməsinin başçısı. Orli hava limanında törətdiyi terror aktına görə ömürlük həbs cəzasına məhkum edilmiş, 2001-ci ilin aprelində Fransadan Ermənistana ekstradisiya olunmuş Fransa məhkəməsi tərəfindən azad olunmuşdur. Baxmayaraq ki, o, Ermənistan vətəndaşı da deyildi, ancaq Ermənistan prezidenti onu əfv etmişdir.

Misak Torlakyan – "Daşnaksütyun" partiyasının üzvü. Azərbaycan Xalq Cümhuriyyətinin Daxili işlər naziri Behbud xan Cavanşiri Türkiyənin İstanbul şəhərində qətlə yetirmiş, lakin həmin dövrdə İstanbul şəhərini nəzarətə götürmüş İngiltərə qoşunlarının hərbi məhkəməsi tərəfindən ruhi xəstə adı ilə cinayətkara bəraət verilmişdir.

Soqomon Teyleryan – Osmanlı imperiyasının Daxili işlər naziri Tələt paşanı Berlində qətlə yetirmiş bu cinayətkar həbs edilsə də, sonradan Berlin məhkəməsi tərəfindən ona bəraət verilmişdir.

Akop Akopyan – ASALA-nın lideri. Münhendə keçirilən Olimpiya oyunlarında İsrail idmançıların öldürülməsinin fəal iştirakçısı olmuşdur. Akop Akopyanın 1982-ci ildə həlak olması barədə verilmiş xəbərlər sonradan təkzib edilmiş, onun həm Dəməşqdə, həm də Afinada yaşadığı və burada ona hər cür şərait yaradıldığı bildirilmişdir.

Qurgen Yanikyan – Türkiyənin Los-Ancelesdəki Baş konsulu Mehmet Baydar və bu şəhərdəki konsulu Bahadır Dəmir bu erməni terrorçusutərəfindən qətlə yetirilmişlər. Məhkəmənin ömürlük həbs cəzası haqqında qərarına baxmayaraq Qurgen Yanikyan "səhhətinə görə" bir müddətdən sonra azadlığa buraxılmışdır.

Caan Oqanesyan – Ermənistan Respublikası Milli Təhlükəsizlik Bas idarəsinin şöbə rəisi. Onun rəhbərliyi ilə 1992-1994-cü illərdə Rusiyadan Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törədilmişdir. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.

Aşot Qaloyan – Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsinin əməkdaşı "Moskva-Bakı" sərnişin qatarlarında partlayışların təşkilatçılarından biri olmuşdur. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.

Boris Simonyan – Rusiya Federal Əks-kəşfiyyat Xidmətinin terrorizmlə mübarizə idarəsinin baş əməliyyat müvəkkili. Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb olunmuşdur. "Moskva-Bakı" sərnişin qatarlarında partlayışların təşkilatçılarından biridir. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.*

Lakin erməni terror fəaliyyətləri Xocalı faciəsində və Qarabağın işğalında öz qanlı əllərini bir daha havaya qaldırdı. Buna qədər isə Türkiyədə erməni terror şəbəkələrinin fırıldaqları tarixə örnək olası həddə idi.

İndiyə qədər edilən aparılan tədqiqatlar sübut edir ki, etnik ermənilərin Türkiyəyə qarşı terrorunun başlanğıcı ümumiyyətlə 1970-ci illərin əvvələri kimi qəbul edilir. Ancaq 19-cu əsrin sonlarında erməni üsyanları Osmanlı dövlətinə qarşı hər cür xain əməllərin fonunda start götürmüşdü.

***1860-cı illərdən bəri ermənilər müstəqil bir dövlət qura bilmək xəyalı ilə Osmanlıya qarşı ən iyrənc xəyanətlərdə rol alırdı. Erməni dərnəkləri Türkiyəni daxildən çökdürmək üçün erməni gəncləri müxtəlif platformalarda toölamağa başlayırdı. Erməni siyasi ikiüzlülüyünün baiz nümunəsi hələ o dövrdən özünü göstərməkdə idi, belə ki, ermənilər siyasi məqsədlərini reallaşdırmaq üçün dərnəkləri başqa fəaliyyət növləri ilə pərdələyirdilər. Bu məqsədlə qurulan ilk birlik 1860-cı ildə Kilikiyada yaradılan "Xeyriyyəçilər Dərnəyi" erməni milliyyətçi ideologiyanın ilk təşkilatlanmış yerlərindən biri idi. Vanda yaradılan "Araratlı", "Məktəb aşiqləri" və Muşda "Şərq", Ərzurumda "Milliyyətçi Qadınlar" və sair dərnəkləri ermənilərə çağırışlar edir və təşkilatlandırırdı.***



Daha sonra bu hərəkatlar birləşərək Osmanlıda "Ermənilərin Vahid Cəmiyyətləri" ni yaratdılar. Rus əsilli Avedis Nazarbeg, həyat yoldaşı Maro ilə 1886-cı ildə İsveçrədə tələbələr tərəfindən "Hınçak"ı qurdu.

1890-cı illərdən bəri bir çox şəhərdə, xüsusən də İstanbulda "filiallar" yaradan bu xəyanətkar ünsürlər Anadoluda bir çox təxribatçı hərəkatlara və eyni zamanda Kumkapı Hadisələrinə (15 İyul 1890) qarışdı.

Ermənilər xarici dövlətlərin köməyi ilə başladığı iğtişaşlarda beynəlxalq terror üsullarını tətbiq etməyə çalışdılar. Bu məqsədlə daşnaklar "NEMESIS" adlı hərəkatı başlatmaqla misilsiz qətliamlar törətməyə başlayaraq bütün dünyada etnik erməni terrorunu alovlandırdılar. Erməni terror qruplaşması ASALA maddi xərc problemini də ən iyrənc metodlarla həll etdi. İnsan alveri, narkoticarət, saxta sənəd ticarəti və sair terrorçuların əsas maliyyə qaynağına çevrildi. Erməni terrorunun əsas üzü ASALA olsa da;

JCAG ("Erməni Soyqırımı" Ədalət Komandanlığı),

ASALA – MR (ASALA – İnqilabçı Hərəkat),

NAS (Yeni Ermənistan Müqavimət Təşkilatı),

ARA (Ermənistan İnqilabi Ordusu / Komandoları),

GEKO (Gizli Erməni Azadlıq Ordusu) kimi illeqal "təşkilatlar" terrorizmdən bir vasitə kimi istifadə etdilər.

ASALA Türkiyəyə qarşı fəaliyyətlərini PKK ilə kordinasiya edir.

Əslində ASALA və PKK arasındakı fəaliyyət ortaqlığı ilk dəfə 9 Noyabr 1980-ci ildə başlamışdır.

***19 Noyabr 1980-ci ildə və Türkiyənin Strasburqdakı Baş Konsulluğu və Roma Türk Hava Yollarının ofisinə hücumlar ASALA və PKK-nın ortaq təxribatı idi. Erməni-PKK əlaqələri ilə bağlı daha bir maraqlı məqam isə *1993-cü ilin yanvarın 6-da Beyrutddakı iki ayrı kilsədə düzənlənən və Livan Ortodoks Baş yepiskopluğu, Ermənistanın müxtəlif partiya nümayəndələrinin iştirak etdiyi mərasimdə işlədilən bu fikirlərdir:***

"Hələlik Türkiyəyə qarşı sakit siyasət yürüdülməlidir. Erməni xalqı getdikcə güclənir və iqtisadi imkanları genişlənməkdədir. İnkişaf etdirilən təbliğat sayəsində bütün dünyada (uydurma) soyqırımı daha yaxşı tanınmağa başlamışdır. Başda ABŞ olmaqla, digər Qərb ölkələri də Qarabağda davam edən müharibələrdə erməniləri haqlı görürlər. Bu fürsəti dəyərləndirmək gərəkdir və Qarabağda savaşan erməni gənclərinə yeniləri qatılacaqlar. Türkiyədə PKK terror təşkilatı ilə edilən mücadilədə iç savaş davam edəcək, Türk iqtisadiyyatı sıfır nöqtəsinə gələcək və vətəndaşlar baş qaldıracaqlar. Türkiyə bölünəcək və kürd dövləti qurulacaqdır. Ermənilər kürdlərlə olan əlaqələrini möhkəmləndirməli və onların mücadiləsini dəstəkləməlidirlər. Bu gün türklərin əlində olan torpaqlar sabah Ermənistanın olacaqdır.

***Bir faktı qeyd etmək yerinə düşər ki, PKK terror təşkilatının Ermənistanda yayım orqanları var. Onlar "Reya Taze" və "Bota Redaksiyon" adları ilə fəaliyyət göstərirlər. Qəzetlərin PKK terror təşkilatı nəzarətində olması kiril əlifbası ilə PKK qruplaşmalarının təbliğatını apardığı sirr deyil." ("Xalq" qəzeti)***

***P.S. Erməni terrorunun dünyada yenidən baş qaldırma cəhdləri açıq şəkildə sezilməyə başlayır.***

***Bu bəlaya qarşı vahid dünya mövqeyi formalaşmalıdır...***

